*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 399-408*
https://doi.org/10.59849/2224-9257.2024.1.399

**HÜSEYNOVA PƏRİXANIM SOLTAN QIZI**
***Azərbaycan, Bakı***
***ADPU-nun Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının dosenti***

# MƏNƏVİ DƏYƏRLƏR POEZİYASI
## (Bəxtiyar Vahabzadənin poeziyası əsasında)

## XÜLASƏ

***Açar sözlər:*** *poeziya, şeir, lirika, mövzu, şair*

Məqalədə bildirilir ki, hələ 50-70- illərdə bünövrəsi qoyulan bu məktəbin üzvlərinin sayı gələcəkdə daha da artacaqdır. Bəxtiyar Vahabzadənin müasir lirikasına belə bir baxış ifadə olunur. Bütün bu son onilliklərdə olduğu kimi yeni şeirlərində də Bəxtiyar Vahabzadənin poeziyasının əsas, daxili təməyyülünə (lirikası bu poeziyada mühüm istiqamət və janr olması xüsusiyyətinə) sədaqətini qoruyub saxladığı söylənilir. Eyni zamanda bu şeirlərin lirik başlanğıcı şairin poeziyasında yeni, mühüm kefiyyətlər mənimsədiyini, milli müsətəqillik ideyasının onun lirikasında daha zəngin, həyati boyalarla ifadəsini tapdığı əsaslandırılır.. Müəllif şairin şeirlərində yalnız öz «mən»ini deyil, həm də xarakterini əks etdiyini qeyd edir. «Özümdən narazıyam» şeirini buna nümunə gətirir:

Mən haqq-hesab istəyirəm
Gecələr gündüzümdən.
Narahatam, narazıyam –
Ömrüm boyu özümdən.
Bizim sənət dünyasının
Qırıq telli sazıyam,
Bircə ondan razıyam ki,
Özümdən narazıyam.

Bu kiçik şeir parçasında şair öz xarakterinin inikasını yaratmış, ömrü boyu narahat olduğunu önəmə gətirmişdir. Mehdi Hüseyn haqlı olaraq onun haqqında yazdığı məqalələrin birini «Narahat şair» adlandırmışdır.

Tədqiqatçı Bəxtiyar Vahabzadənin lirikasının zamanla, əsrin siyasi-ictimai və ümumdünya hadisələri ilə üzvü əlaqədə inkişaf etdiyini göstərir və vurğulayır ki, bu həmişə belə olmuşdur, indi də belədir. Məhz buna görə də biz onun poeziyasında, o cümlədən xüsusi lirikasında bütöv bir dövrün lirikasını görürük və bu mənada biz onun lirikasının müxtəlif mərhələlərindən söz aça bilərik. Məsələn, onun lirikasının 50-60-cı illər, 70-80-cı illər və milli müstəqillik (90-cı illər) mərəhələlərini təyin etmək mümkündür. Ələbəttə, Bəxtiyar Vahabzadə poeziyasında bu mərhələnin bir-birindən kəskin şəkildə fərqləndiyini düşünmək düz olmazdı. B.Vahabzadənin lirikası bütün təşəkkül mərhələlərində öz fərdi-poetik ruhu və xüsusiyyətələrini

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 399-408*
https://doi.org/10.59849/2224-9257.2024.1.399

qoruyub saxlamışdır.

Daha sonra tədqiqatçı onun lirikasının dözümlü xüsusiyyətlərinin inkişafından, dərinləşməsindən, ideya-fəlsəfi və poetik mündərəcəsinin zənginləşməsindən, yeni müasir keyfiyyətlər mənimsəməsindən bəhs edir. Bu cəhətdən şairin son illər, XX əsrin sonlarına təsadüf edən lirikasını şairin poeziya məktəbinin davamı kimi səciyyələndirir. Müəllif şairin şeirlərində milli istiqlal və müstəqillik məsələləri üzərində düşünür, poetik vasitələri – bu məsələləri aydın, mənalı və ən ümdəsi isə konkret həllinə doğru yönəldir. Tədqiqatçı şairin şeirlərində lirik "mən"ini bu məsələlərlə münasibətdə özünü ifadə etdiyini söyləyir.

Şairin son illər lirikasını bir küll halında nəzərdən keçirir, öncə bunlardan milli müstəqillik mövzusunun Bəxtiyar Vahabzadə lirikasında çoxcəhətliliyini qeyd edir. Milli müstəqillik ideyası B.Vahabzadə - özünü dərk etmək, əsarət və azadlıq, bizim milli mənliyimiz, türkçülük, millətin, çağdaş durumu, Allah qarşısında insanın etirafı və s. kimi aspektləri ilə diqqəti cəlb edir. Şairin «məni» bütünlüklə bu anlayışları özü üçün izah etmək və dərk etməklə məşğuldur qənaətinə gəlir. Tədqiqatçı elmi polemikaya girir, öz mülahizələrini sitatlar üzərində qurur.

**PERIKHANUM SOLTANKIZI (HUSEYNOVA)**

## POETRY OF MORAL VALUES
### *(Based on Bakhtiyar Vahabzade's poetry)*

*Summary*

***Keywords:*** *poetry, poem, lyric, theme, poet*

The article states that the number of members of this school, which was founded in the 50s and 70s, will increase in the future. Such a view is expressed on Bakhtiyar Vahabzade's modern lyrics. As in all these last decades, it is said that in his new poems, Bakhtiyar Vahabzade has preserved his loyalty to the main, inner principle of his poetry (the fact that lyrics are an important direction and genre in this poetry). At the same time, the lyrical beginning of these poems is justified by the fact that the poet acquired new, important qualities in his poetry, and the idea of national independence found expression in his lyrics with richer, more vital colors. The author notes that the poet's poems reflect not only his "I", but also his character. He cites the poem "I'm Dissatisfied with Myself" as an example:

I want computation
Nights from my day;
I am upset, I am dissatisfied -
From myself all my life.
Our art world
I am a broken-stringed instrument,
I am only satisfied that

I am unhappy with myself.

In this short piece of poetry, the poet has created an image of his character and has brought to my attention that he was worried throughout his life. Mehdi Huseyin rightly called one of the articles he wrote about him "Anxious poet".

The researcher shows that Bakhtiyar Vahabzade's lyrics developed over time, in connection with the political-social and global events of the century, and emphasizes that this has always been the case and is still the case. That is why we see the lyrics of an entire era in his poetry, including his special lyrics, and in this sense we can talk about different stages of his lyrics. For example, it is possible to determine the stages of his lyrics in the 50s-60s, 70s-80s and national independence (90s). Indeed, it would not be correct to think that this stage is sharply different from one another in Bakhtiyar Vahabzade's poetry. B. Vahabzade's lyrics have preserved their individual-poetic spirit and characteristics at all stages of formation.

Later, the researcher talks about the development and deepening of the enduring features of his lyrics, the enrichment of the ideological-philosophical and poetic content, and the acquisition of new modern qualities. In this respect, he characterizes the poet's lyrics of the last years, the end of the 20th century, as a continuation of the poet's school of poetry. In the poems of the poet, the author thinks about the issues of national independence and independence, and uses poetic means to direct these issues to a clear, meaningful and, most importantly, concrete solution. The researcher says that the poet expresses his lyrical "I" in relation to these issues in his poems.

He reviews the poet's lyrics of the last years as a whole, and first of all, he notes the multifacetedness of the theme of national independence in Bakhtiyar Vahabzade's lyrics. The idea of national independence B. Vahabzadeh - self-awareness, slavery and freedom, our national identity, Turkism, the modern state of the nation, man's confession before God, etc. attracts attention with aspects such as The poet comes to the conclusion that "I" is completely engaged in explaining and understanding these concepts for himself. The researcher engages in scientific polemics, bases his reasoning on quotations.

**Периханум Солтанкизи (Гусейнова)**

## ПОЭЗИЯ НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ
## (По стихам Бахтияра Вагабзаде)
### Резюме

**Ключевые слова:** поэзия, стихотворение, лирика, тема, поэт.

В статье говорится, что число членов этой школы, основанной в 50-70-х годах, в будущем будет увеличиваться. Такой взгляд выражен и на современную лирику Бахтияра Вагабзаде. Как и во все эти последние

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2024
Səh. 399-408
https://doi.org/10.59849/2224-9257.2024.1.399

десятилетия, говорят, что в своих новых стихах Бахтияр Вагабзаде сохранил верность главному, внутреннему принципу своей поэзии (тому, что лирика является важным направлением и жанром в этой поэзии). В то же время лирическое начало этих стихотворений оправдано тем, что поэт приобрел в своей поэзии новые, важные качества, а идея национальной независимости нашла выражение в его лирике с более богатыми, жизненными красками. Автор отмечает, что стихи поэта отражают не только его «Я», но и характер. В качестве примера он приводит стихотворение «Я собой недоволен»:

Я хочу вычисления
Ночи моего дня;
Я расстроен, я недоволен -
От себя всю жизнь.
Наш мир искусства
Я инструмент со сломанной струной,
меня устраивает только это
Я недоволен собой.

В этом небольшом стихотворении поэт создал образ своего героя и довел до моего сведения, что он переживал всю свою жизнь. Мехти Гусейн справедливо назвал одну из написанных о нем статей «Тревожным поэтом».

Исследователь показывает, что лирика Бахтияра Вагабзаде развивалась с течением времени, в связи с политико-социальными и мировыми событиями века, и подчеркивает, что так было всегда и остается таковым. Вот почему в его поэзии мы видим лирику целой эпохи, в том числе и его особую лирику, и в этом смысле можно говорить о разных этапах его лирики. Например, этапы его лирики можно определить в 50-60-е годы, 70-80-е годы и период национальной независимости (90-е годы). Действительно, было бы неправильно думать, что в поэзии Бахтияра Вагабзаде эти этапы резко отличаются друг от друга. Лирика Б. Вагабзаде на всех этапах становления сохранила свой индивидуально-поэтический дух и особенности.

Далее исследователь говорит о развитии и углублении непреходящих черт его лирики, обогащении идейно-философского и поэтического содержания, приобретении новых современных качеств. В этом отношении он характеризует лирику поэта последних лет, конца XX века, как продолжение поэтической школы поэта. В стихах поэта автор задумывается о вопросах национальной самостоятельности и самостоятельности, поэтическими средствами направляет эти вопросы к ясному, осмысленному и, главное, конкретному решению. Исследователь говорит, что поэт выражает в своих стихах свое лирическое «Я» по отношению к этим вопросам.

Он рассматривает лирику поэта последних лет в целом и, прежде всего, отмечает многогранность темы национальной независимости в лирике

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 399-408*
https://doi.org/10.59849/2224-9257.2024.1.399

Бахтияра Вагабзаде. Идея национальной независимости Б. Вагабзаде - самосознание, рабство и свобода, наша национальная идентичность, тюркизм, современное состояние нации, исповедание человека перед Богом и т.д. привлекает внимание такими аспектами, как Поэт приходит к выводу, что «Я» полностью занят объяснением и пониманием для себя этих понятий. Исследователь ведет научную полемику, строит свои рассуждения на цитатах.

**Mənəvi dəyərlər poeziyası**

Hələ 50-70- illərdə bünövrəsi qoyulan bu məktəbin üzvlərinin sayı gələcəkdə daha da artacaqdır. Bəxtiyar Vahabzadənin müasir lirikasına belə bir baxış ifadə etməmişdən əvvəl ilk növbədə onu qeyd etməyi vacib bilirik ki, son onilliklərdə olduğu kimi ən yeni şeirlərində də Bəxtiyar Vahabzadənin poeziyasının əsas, daxili təməyyülünə – lirikası bu poeziyada mühüm istiqamət və janr olması xüsusiyyətinə sədaqətini qoruyub saxladığını əks etdirir. Eyni zamanda bu şeirlər lirik başlanğıcın şairin poeziyasında yeni, mühüm kefiyyətlər mənimsədiyini, milli müsətəqillik ideyasının onun lirikasında daha zəngin, həyati boyalarla ifadəsini tapdığını deməyə əsas verir. Şeirlərində yalnız öz «mən»ini deyil, həm də xarakterini əks etdirir. «Özümdən narazıyam» şeiri buna ən yaxşı misaldır.

Mən haqq-hesab istəyirəm
Gecələr gündüzümdən.
Narahatam, narazıyam –
Ömrüm boyu özümdən.
Bizim sənət dünyasının
Qırıq telli sazıyam,
Bircə ondan razıyam ki,
Özümdən narazıyam.

Bu kiçik şeir parçasında şair öz xarakterinin inikasını yaratmış, ömrü boyu narahat olduğunu önəmə gətirmişdir. Mehdi Hüseyn haqlı olaraq onun haqqında yazdığı məqalələrin birini «Narahat şair» adlandırmışdır.

Bəxtiyar Vahabzadəinin, lirikası zamanla, əsrin siyasi-ictimai və ümumdünya hadisələri ilə üzvü əlaqədə inkişaf etmişdir. Bu həmişə belə olmuşdur, indi də belədir. Məhz buna görə də biz onun poeziyasında, o cümlədən xüsusi lirikasında bütöv bir dövrün lirikasını görürük və bu mənada biz onun lirikasının müxtəlif mərhələlərindən söz aça bilərik. Məsələn, onun lirikasının 50-60-cı illər, 70-80-cı illər və milli müstəqillik (90-cı illər) mərəhələlərini təyin etmək mümkündür. Ələbəttə, Bəxtiyar Vahabzadə poeziyasında bu mərhələnin bir-birindən kəskin şəkildə fərqləndiyini düşünmək düz olmazdı. B.Vahabzadənin lirikası bütün təşəkkül

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 399-408*
https://doi.org/10.59849/2224-9257.2024.1.399

mərhələlərində öz fərdi-poetik ruhu və xüsusiyyətələrini qoruyub saxlamışdır. Burada biz hər şeydən əvvəl onun lirikasının özümlü xüsusiyyətlərinin inkişafından, dərinləşməsindən, ideya-fəlsəfə və poetik mündərəcəsinin zənginləşməsindən, yeni müasir keyfiyyətlər mənimsəməsindən bəhs etsək, daha düzgün olardı. Məsələn, bu cəhətdən şairin son illər, daha dəqiq desək, XX əsrin sonlarına təsadüf edən lirikasını şairin poeziya məktəbinin davamı kimi səciyyələndirmək zənnimizcə əhəmiyyətli dərəcə xarakterikdir. Bu şeirlərində milli istiqlal və müstəqillik məsələləri üzərində düşünür, öz poetik vasitələrini bu məsələlərin aydın, mənalı və ən ümdəsi isə konkret həllinə doğru yönəldir. Demək olar ki, bütün şeirlərində biz şairin lirik “mən”ini bu məsələlərlə münasibətdə özünü ifadə etdiyini görürük. “Onun poetik “mən”i, fərdi üslubu, lirik qəhrəman poeziyamızın mənzərəsində aydın cizgiləri ilə seçilir.”[2. Ön söz]

Şairin son illər lirikasını bir küll halında nəzərdən keçirərkən əvvəl bunlarda milli müstəqillik mövzusunun B.Vahabzadə lirikasında çoxcəhətliliyini qeyd etməli oluruq. Milli müstəqillik ideyası B.Vahazadə - özünü dərk etmək, əsarət və azadlıq, bizim milli mənliyimiz, türkçülük, millətin, çağdaş durumu, Allah qarşısında insanın etirafı və s. kimi aspektləri ilə diqqəti cəlb edir. Şairin «mən»i bütünlüklə bu anlayışları özü üçün izah etmək və dərk etməklə məşğuldur.

Milli müstəqillik – B.Vahabzadə lirikasında hər şeydən əvvəl özünü dərk etməkdir. Özünü dərk etmək üçün isə şairə görə xalq, millət özünə qayıtmalı, öz ləyaqət və mənliyini qoruyub saxlamalıdır. B.Vahabzadə «Özüm olmalıyam» şeirində bu ideyanı xüsusi və ayrıca şeir mövzusu səviyyəsində işləmişdir. Özünü dərk elə devizi bu şeirin ən əsas və ana motividir. Bütün şeir bu fikrin inkişafından və dərinləşməsindən ibarətdir.

Özünü dərk elə, özünü anla,
Gah ona, gah buna baş əydin yetər.
Özgəyə bu qədər yalmanmağınla,
Özünə düşmənsən özgədən betər.

Sonrakı sətirlərdə şairin bütün bu fikri şərq, islam dünyası məkanı konteksində davam edir.

Bizim özlüyümüz getdi büsbütün,
Hanı bəs kişilik, hanı bəs qürur?
Dünyaya hökm edən qoca Şərq bu gün,
Qərbin çubuğuyla oturub durur.

Beləliklə də Şərq-Qərb münasibəti B.Vahabzadənin lirikasında milli özünü dərk düşüncəsinin daha geniş, daha müqayisəli kontekstində qoyulmasını və poetik

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 399-408*
https://doi.org/10.59849/2224-9257.2024.1.399

təsirini mümkünləşdirməkdir. Çox düzgün olaraq, hörmətli professor Vaqif Yusifli qeyd edir ki, " Dahi Sabirin "Hophopnamə"si göz yaşları içində qəhqəhə idi, üz tutduğu xalqa "özünü dərk et" harayını, fəryadını çatdırırdı. Bəxtiyarın "Bəxtiyarnamə"si isə nə göz yaşlarıdı, nə də qəhqəhə. Müdrik bir şair-filosofun bəzən çılğın, bəzən qəzəb, hiddət, üsyan dolu çağırışlarıdır. "Ey xalqım, özünü dərk et və düşün… Əsrlər boyu səni izləyən və qəhr edən bu bəlalardan özün çıxış yolu ara, tarixdən ibrət al!" [3 səh. 98] B.Vahabzadə oxucusuna milli ləyaqət hissi təlqin edir. Belə hissdən məhrumluq insanı da, xalqı da kiçildir, simasızlaşdırır:

Yada əyilməkdən vallah yorulduq.
Bezmədik özgəni yamsılamaqdan.
İtdi mənliyimiz, tanınmaz olduq,
Təmiz qanımıza qan calamaqdan.
Tanımaq istəmir bu dünya bizi,
Təqlidlə boğurduq mənliyimizi.

Bu həqiqəti dərk etmək, yaşamaq ağırdır, acı bir hissdir. Bunu şairin lirik qəhrəmanı, poetik «mən»i dərk edir və yaşayır. Məhz bu səbəbdən də B.Vahabzadənin lirik qəhrəmanı həqiqətin axtarışlarında ən qəti nəticələrə gəlib çıxır, "Özünü dərk et" çətin, dramatik vəziyyətdən yeganə çıxış yolu budur:

Tanınmaq istərəm mən öz səsimlə,
Bəsdir yaşadığım bir məhkum kimi.
Dünyanın gözündə yaxşı, pisimlə,
Görünmək istərəm olduğum kimi.
Nəyəmsə mən oyam, qarayam ya ağ,
Niyə özgəsinə güvənməliyəm?
Özüm olmalıyam, mən özüm ancaq.
Özüm deyiləmsə, demək heç nəyəm.

Heç nə olmamaq üçün xalq da, insan da özü olmalıdır. B.Vahabzadənin lirikasında yekun fikir belədir.

Eyni zamanda qeyd etməliyik ki, B.Vahabzadənin lirikasında bu fikrimizlə bağlı ikinci bir mövzu vardır. Bu milli mənlik mövzusudur. Ki, şairin son şeirləri arasında «Biz kimik?» şeiri bilavasitə bu mövzuya həsr edilmişdir. Şairin bu şeirdə düşüncələri – "Biz əsrin sınağından keçmədik. Niyə?" sualı ətrafında çırpınır və onu daxilən, mənəvi narahat edən suala cavab axtarır:

Uzun illər düşünmüşəm:
Millətlərin cərgəsində biz də varıq.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 399-408*
https://doi.org/10.59849/2224-9257.2024.1.399

Yurdumuza qəsd edənin
gözlərini oyanlarıq.
Biz o qədər nəcibik ki,
Bir balaca işarədən söz anlarıq,
Haqlı zoru ayırd edib,
Öz yerinə qoyanlarıq.

Şair düşüncəsi: biz beləyiksə, niyə əsrin sınağından keçmədik? Niyə? Bax, şair bu suala cavab axtarır. Şair tanrıya üz tutur və ondan bu ağrılı suallarına cavab istəyir. Tanrıdan öyrənmək istəyir ki, biz kimik?

İndi ulu Yaradanadan soruşuram:
De kimik biz?
Məzlumuq, ya zalimik biz?

Niyə şair sualı bu dərəcədə aktuallaşdırır? Biz sonrakı misralarda bu ağrılı sualın cavabına yaxınlaşırıq. Daha doğrusu, şairdə bu sualları doğuran səbəbləri özümüz üçün aydınlaşdırırıq.

Daş üstündə göyərməyən bir tumuq biz
Özümüzə zalım ikən
Başqasına məzlumuq biz,
Əldən gedən torpaq üçün
Ürəyimiz çilik-çilik;
Zalım bizdən torpaq alıb
Biz zalimdən sülh istərik.

Şairə görə bunlar gerçəkliklərimizin acı həqiqətdir. Özümüzə yad olduğumuz üçün biz keimliyimizi itirmişik. Allah da bu səbəbdən bizdən üz döndərmişdir.

Bəxtiyar Vahazadənin son lirik şerlərində bir motiv də vardır. Bu azadlıq, müsətəqillik qazanandan sonra bu həqiqi mənada azad olmağımız mövzusudur. Azadıq, ancaq nədən və necə azadıq? Bax, şairi bu sual düşündürür.

Qurtarıb özgənin əsarətindən,
Düşdük özümüzün əsarətinə.

Bunun səbəbi nədir? B.Vahabzadə sualı qoyur və öz lirik mühakimələrini onun cavabını axtarmağa istiqamətləndirir. Niyə indii biz özgənin yox, özümüzün əsarətindəyik? Ona görə ki. bizim azadlığımız əslində yüksək mənəvi dəyərlərdən tarixin bizə qoyduğu irsdən azad olmağımız deməkdir. Ona görə ki, yalana

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 399-408*
https://doi.org/10.59849/2224-9257.2024.1.399

qurşanmışıq, qorxudan və Allah xofundan azadıq.

Yoxdur əvəzimiz yalançılıqda,
Bu ona şər atır, o buna böhtan.
Yurdu dağıtmaqda, talançılıqda.
Azadlıq qorxudan, Allah xofundan.

O da çox önəmlidir ki, B.Vahabzadə milli dərdələrimizi göstərərkən bunun səbəblərini və səbəbkarlarını kənarda yox özümüzdə axtarır. Məhz bu nöqtədə onun lirikası Sabir poeziyasına yaxındır: onun vətəndaşlıq ənələrinin davamı və yeni təzahürüdür. B.Vahabzadə bir çox müşküllərimizin səbəbini həm də köhnə vərdişlərlə yaşamağımızda görür. «Məram» adlı şerində milli xarakterimizin bəzi müşkül köhnə cəhətlərinə diqqət cəlb edir:

Çayı keçmək üçün çırmanınca biz.
Erməni keçibmiş çayı bayaqdan.
Yastı bir təpəni dırmaşınca biz,
Erməni burnunu göstərdi dağdan.
Heç bir iş görməmişdən havayı, yersiz,
Hində xoruzlanmaq adəti bizdə.
Bazarda baş çəkib at seçincə biz,
Erməni at çapır eşiyimizdə.

Bizimki gətirmir, vallah bu dövran.
Elə bil işləyir əleyhimizə.
Biz kürd basdırırıq yumurtamızda,
Erməni cücəsi boylanır bizə.
BMT kürsüsü! ucadan-uca
Birini qaldırır, birini qırır.
Biz öz haqqımızı başa salınca,
Erməni zoruna haqq qazandırır.

Beləliklə, şair bu qəbildən olan digər vəziyyətləri də sayır və təbii olaraq niyə biz beləyik? – sualına gəlib çıxır. Və şair sonrakı poetik mühakimələrində belə nəticəyə gəlir:

Bir yol var; o yolu biz keçməyincə.
Köhnə qanımızı dəyişməyincə.
Nağıla uymağı unutmayınca.
Vaxtın sükanın bərk tutmayınca.
Zaman axarını vaxt axarını,

Axan qanımıza biz qatmayınca,
Zəlil durumuna can yanmayınca,
Bu miskin halına utanmayınca,
Tarix ruhumuza utanacaqdır.
Gələcək nəsillər bizə yad kimi,
Məhkəmə quracaq, divan quracaq,
Nəvə babasına damğa vuracaq.

B.Vahabzadə lirikasında bu motivlər müəyyən mənada yeni olmasada, biz mütləq qeyd etməliyik ki, bu motivlər müasir dövrün iki əsrin qovşağında yeni əsrin başlanğıcında, bizim milli müstəqilliyimizin əsas problemləri ilə bilavasitə bağlıdır və bu motivləri şair ən yeni həyat zaman əlamətləri ilə zənginləşdirərək əks etdirdiyinə görə şairin lirik poeziyası çağdaş lirik poeziyanın öncül hadisəsinə çevrilmişdir. Özünün «mən»ini hələ XX əsrin 50-60-cı illərində təsdiq edən şair əsrin sonunda öz poeziyasının yüksək inkişafı, möhkəmliyi ilə özünün poeziya məktəbini yaratdı, get-gedə bu məktəbin üzvləri – orta və gənc nəslin nümayəndələri yetişməyə başladı.

B.Vahabzadəni mərhum xalq şairi Nəbi Xəzri belə xarakterizə edir: «Bəxtiyar sənətkarlar yurdu Azərbaycanın görkəmli şairidir, dərin və qırılmaz tellərlə öz xalqına bağlıdır. «O, şerimizin klassik ənənələrindən qidalanaraq özünün müasir ruhlu, müasir amallı şeir dünyasını (məktəbini) yaratdı…» [ 4. Ön söz ]

B.Vahabzadənin yaratdığı şeir, poeziya məktəbi – mənəvi dəyərlər məktəbidir.

## Ədəbiyyat siyahısı

1. Azərbaycanın Bəxtiyarı Bakı, "Azərbaycan", 1955
2. Bəxtiyar Vahabzadə Seçilmiş əsərlər, "Azərnəşr", 1974
3. Bəxtiyaram mən (Məqalələr toplusu), AR.Mədəniyyət və Turizm Nazirliyi, Bakı, 2016
4. Bəxtiyar Vahabzadə Əsərləri On iki cilddə IV cild Bakı, "Çaşıoğlu", 2002
5. Bəxtiyar Vahabzadə Əsərləri On iki cilddə VIII cild Bakı, "Çaşıoğlu",
6. Nizami Cəfərov Bəxtiyar Vahabzadə, Bakı, "Azərbaycan" 1996
7. Təyyar Salamoğlu Azərbaycan ədəbiyyatı, Mübahisələr, həqiqətlər, Bakı, "Orxan" NPS MMC, 2016
8. Pərixanım Soltanqızı (Hüseynova) Bəxtiyar Vahabzadənin poeziyası, Filologiya məsələləri, "Elm və təhsil", Bakı, 2022

**Rəyçi: professor Ramazan Qafarlı**